**UOT 32**

# QLOBALLAŞMA VƏ ONUN DÖVLƏTƏ TƏSİRİ

**Əfsanə QƏHRƏMANLI***

Məqalə redaksiyaya daxil olmuşdur: 5 sentyabr 2022; çapa qəbul edilmişdir: 25 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022
Received: 5 th of September, 2022; accepted: 25 th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *dövlət, qloballaşma, siyasət, idarəetmə, dövlət siyasəti*

## Giriş

Günümüzdə əsas müzakirə mövzularından birinə çevrilən və günü-gündən populyarlığı artan qloballaşma haqqında bir çox fərqli fikir və təriflər mövcuddur. Qloballaşma müxtəlif insanlar üçün fərqli mənaları ifadə edir. Koreyalı bir Pentikostal missioner üçün bu, imanı yaymaq və təbliğat aparmaq üçün yeni imkanlar deməkdir. ABŞ-dakı Dominikanlı bir mühacir üçün bu, doğma kəndində əkinçilik ilə məşğul olaraq yeni köklər yetişdirmək deməkdir. Hindistanlı televiziya tamaşaçısı üçün bu, bəziləri xarici formatlardan uyğunlaşdırılmış müxtəlif yeni şoulardan nümunə götürmək deməkdir. Çinli geyim işçisi üçün bu, cins şalvarların iplərini kəsməklə kənd yoxsulluğundan xilas olmaq şansı deməkdir. Amerikalı bir ayaqqabı şirkətinin rəhbəri üçün bu, məhsulları mağazalara çatdırmaq üçün uzaq tədarük zəncirini idarə etmək deməkdir. Bütün müxtəlifliyinə baxmayaraq, bu nümunələrin ortaq cəhətləri var. Onlar daha çox insanın daha böyük məsafələrdə daha sıx əlaqə qurması və onların əlaqələri haqqında daha çox məlumat əldə etməsinin bir çox yollarından bəzilərini göstərir [8, 1]. “Qloballaşma” termini ilk dəfə 1833-cü ildə britaniyalı iqtisadçı U.Fosterin müəllifi olduğu dünyada resursların bölüşdürülməsi və istifadəsi ilə bağlı məqalədə istifadə edilmişdir. Qloballaşmanın bugünkü mənada məşhurluq qazanması Garett Hardinin 1968-ci ildə resursların paylaşılması və istifadəsi ilə bağlı işinə əsaslanır [11, 116]. XX əsrin 60-cı illərindən başlayaraq maraq obyektinə çevrilən qloballaşmanın elmi müstəvidə araşdırılmasına, əsasən, XX əsrin 90-cı illərindən etibarən başlanılmışdır [1, 128-129]. Sadə mənada qloballaşma, qlobal qarşılıqlı əlaqənin genişlənməsini, dərinləşməsini və sürətlənməsini nəzərdə tutur və o, regionlar və qitələr arasında mövcud olan insan fəaliyyətini sosial, siyasi və iqtisadi müstəvidə birləşdirir. Başqa bir tərifə görə isə qloballaşma, məsafələrin qısalması, obyektlərin bir-birinə yaxınlaşması və dünyanın bir tərəfindəki fərdin qarşılıqlı fayda üçün dünyanın digər tərəfindəki fərd ilə qarşılıqlı əlaqə qura biləcəyi asanlıq prosesi olaraq müəyyən edilir [7, 9].

Müasir dünyanın daim dəyişən və inkişaf edən strukturuna öz damğasını vuran qloballaşma fenomeni cəmiyyətin həyatının bütün sahələrində köklü və davamlı dəyişikliyi də öz bərabərində gətirir. Bu fenomen insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsini təkid edərək, bu istiqamətdə demokratiyanın tətbiqini də qaçınılmaz edir. Qloballaşma, həmçinin, iqtisadi, sosial, siyasi və mədəni istiqamətlərdə dünya ölkələrinin və onların xalqlarının qarşılıqlı əlaqəsini və əməkdaşlığını təmin edir.

* *magistrant, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: afsanaqahramanli@gmail.com

**Qloballaşmanın təsir sahələri**

Qloballaşma prosesində ölkələr arasında mədəni əlaqələrin yayılması və təkmilləşməsi nəticəsində cəmiyyətlər arasında fərqli qütbləşmələrin azalması müşahidə olunur. Onun tətbiq olunduğu cəmiyyətə təsirləri həmin cəmiyyətin mədəni, sosial, siyasi və iqtisadi quruluşundan asılı olaraq nəticə verir. Elmi ədəbiyyatlarda qloballaşmanın, əsasən, 3 sahəsi fərqləndirilir: iqtisadi, siyasi və mədəni [10, 146]. Buradan yola çıxaraq, qloballaşma bir çox müxtəlif sahələr (iqtisadi, sosial və siyasi) arasında mürəkkəb qarşılıqlı asılılıq şəbəkəsi kimi tanınır. Keçən əsrdə baş vermiş elmi-texnoloji inqilabın nəticəsi kimi texnoloji tərəqqi, dünya ölkələrinin iqtisadi inteqrasiyası və dünyanın müxtəlif bölgələrində yaşayan insanların fərqli ərazilərə miqrasiyası daxil olmaqla, bir-biri ilə əlaqəli çoxlu elementlər qloballaşmaya təkan verdi.

İqtisadi sahədə qloballaşma, ümumiyyətlə, beynəlxalq ticarətin genişlənməsi, yayılması və inkişafına, o cümlədən ölkələr arasında iqtisadi əlaqələrin intensivləşməsinə, dünyada vahid bazar sisteminin yaradılmasına və bu istiqamətdə vahid iqtisadi sferanın formalaşmasına əsaslanır. Bura bazar iqtisadiyyatının inkişafı, azad ticarətin yayılması, iqtisadi təşkilatların işinin geniş vüsət alması, xarici ticarətin həcminin genişlənməsi, dünya bazarları ilə milli bazarların inteqrasiyası da aid edilir [9, 138]. Bir çox ölkələrdə fəaliyyət göstərən beynəlxalq və hökümətlərarası ticarət təşkilatları bu prosesdə əsas faktorlar hesab edilir. Güclü rəqabət mühiti quran bu aktorlar ilə qlobal iqtisadiyyatın müxtəlif sahələrində qərarların konsentrasiyası və iş məhsuldarlığının artması müşahidə olunur. Ümumiyyətlə, qloballaşma prosesinin əsas aparıcı motivi iqtisadidir. İstər ölkə, istər müəssisələr, istərsə də ayrı-ayrı fərdlər kapital, təbii ehtiyatlar, əmək və texnologiya kimi amillərdən optimal şəraitdə faydalanmaq üçün qloballaşmaya üz tuturlar [5, 11].

Artan kommersiya əməliyyatları nəticəsində xalqlar arasında qarşılıqlı əlaqə, əməkdaşlıq və oxşarlığın artması iqtisadi qloballaşma prosesində ən mühüm hadisələrdən biridir. Ticarət əlaqələri artdıqca, milli münasibətlər dəyişir, beynəlxalq üstünlüklər inkişaf edir, geniş vüsət alır və hətta zəruri ehtiyaca çevrilir. Əslində bəzi inkişaflar ticarətin beynəlxalq genişlənməsində, yəni ticarətin qloballaşmasında böyük rol oynadı. Bu inkişafların başlanğıcında 1947-ci ildə qurulan GATT (Bu gün GATT Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ilə əvəz edilmişdir) çərçivəsində gömrük tarifləri və kvotaları ləğv etməklə beynəlxalq ticarəti universal miqyasda liberallaşdırmaq səyləri olmuşdur. Bunlarla yanaşı, təbii ki, texnoloji (rabitə və kommunikasiya) inkişafların da mühüm təsirləri var. Bu inkişaflarla nəqliyyat xərcləri azaldı və beynəlxalq bazarı izləmək asanlaşdı [12, 224].

Siyasi qloballaşma dedikdə, bütün dünyada siyasi münasibətlərin intensivləşməsi və genişlənməsi, o cümlədən, ayrı-ayrı ölkələrin siyasi sahədə qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Və burada, əsasən, nüfuzlu beynəlxalq və hökumətlərarası təşkilatların təsiri sıx müşahidə olunur. Bu istiqamətdə siyasi qloballaşmanın əsas aspektlərindən biri dövlətin əhəmiyyətinin azalması və siyasi mərhələdə digər aktorların rolunun artmasıdır. Yəni, qloballaşmadan əvvəl beynəlxalq sistemin əsas qərarvericiləri olan dövlətlər qloballaşma prosesində paralel olaraq öz güclərini milli və hökumətlərarası təşkilatlarla bölüşməli oldular. Siyasi qloballaşma, dünya ölkələrinin siyasi münasibətlərinin qlobal müstəvidə sıx əlaqədə inkişafına səbəb olduğundan beynəlxalq münasibətlərin də təkmilləşməsinə töhfə vermişdir. Bu prosesdə beynəlxalq əlaqələrin genişlənməsi ilə paralel olaraq dövlətlərin bir sıra problemləri də beynəlxalq müstəviyə keçdi və onların həlli üçün beynəlxalq əməkdaşlıq zəruri hala gəldi. [3, 28].

Mədəni qloballaşma ideyaların, mədəniyyətlərin və dəyərlərin dünya miqyasında ötürülməsi yolu ilə sosial əlaqələrin genişlənməsi və intensivləşməsidir [15]. Bunu həm də cəmiyyətlərin qarşılıqlı əlaqəsi və bu qarşılıqlı əlaqənin mütəmadi olaraq artması ilə də izah etmək olar. Mədəni qloballaşma mədəniyyətlər arasında təmasları gücləndirir, mədəni hadisələri yayır və mədəniyyətlərarası mübadiləni dəstəkləyərək, dünyanın bütün

mədəniyyətlərinə və cəmiyyətlərinə təsir edir və yeni, hibrid mədəni formaların ortaya çıxmasına səbəb olur. Belə ki, mədəni qloballaşmanın nəticəsi olaraq, dünyanın fərqli mədəniyyətlərə və yaşam tərzinə sahib xalqları arasında ortaq mədəni dəyərlər meydana çıxır. Buna misal olaraq, dünyanın müxtəlif bölgələrində yaşayan və fərqli adət-ənənələrə sahib olan insanların eyni marka geyimlərdən istifadə etməsi və eyni qidanı istehlak etməsini göstərmək olar. Və yaxud mədəni qloballaşmanın başqa bir nəticəsi kimi siz Amerikada yaşamayan, başqa ölkənin vətəndaşı olan bir fərdin, üstündə Amerika bayrağı əks olunan geyimlər geydiyini müşahidə edə bilərsiniz. İngilis dilinin qlobal dil kimi istifadəsi, eyni bir musiqinin dünyanın müxtəlif ərazilərində dinlənərək hitə çevrilməsi və s. kimi amillər də mədəni qloballaşmanın nəticələridir. Bu da, öz növbəsində, müəyyən mənada qlobal mədəniyyətin yaranmasına təkan verir.

Qarşısının alınması, demək olar ki, mümkün olmayan və getdikcə daha çox yayılan qloballaşma olduqca geniş təsir sahəsinə sahibdir. Qeyd edilən təsirlər ölkələrin inkişafı, dünyaya iqtisadi, sosial, siyasi inteqrasiya və s. baxımdan faydalı olsa da, o öz bərabərində ölkələrin təkbaşına öhdəsindən gələ bilməyəcəyi bir çox problemlər gətirmişdir. Belə ki, qloballaşma demokratiya, plüralizm, insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi kimi bir sıra vacib faktorların təbliğini gücləndirsə də, bununla bərabər cəmiyyətin mənəvi-əxlaqi strukturunun dərindən sarsılmasına və dəyişilməsinə səbəb olur. Xalqlar öz mədəni və milli kimliklərindən uzaqlaşaraq özgələşirlər. Bu da uzun zaman periodunda milli özünüdərkin aradan qalxmasına və milli-mənəvi dəyərlərin unudulmasına səbəb olacaqdır. Eyni zamanda, qloballaşmanın vəd etdiyi iqtisadi inkişaf, yalnız inkişaf etmiş ölkələr üçün faydalı hesab edilə bilər. Çünki bu prosesdə inkişaf etmiş ölkələrin öz nüfuzlarından istifadə edərək, dünya iqtisadiyyatından sui-istifadə etməsi hallarını da müşahidə etmək mümkündür. Qloballaşma, iqtisadi artıma və beynəlxalq ticarətin inkişafına səbəb olsa da, bu qeyri-bərabərdir. Çünki iqtisadi cəhətdən güclü olan, inkişaf etmiş ölkələr, bu proses zamanı iqtisadi cəhətdən zəif və inkişaf etməmiş ölkələrdən daha çox fayda əldə edirlər və bu da güclünün zəifi istismar etməsinə səbəb olur [13].

**Qloballaşmanın dövlət siyasətinin formalaşmasına təsiri**

Qloballaşma prosesində iqtisadi rifahın artması, sürətli baş verən məlumat mübadiləsi, elmi və texnoloji inkişafın daha da sürətlənməsi, insan şəxsiyyətinə hörmət kimi faydalı təsirlərlə yanaşı, qlobal istiləşmə, terrorizm, narkotikin qanunsuz dövriyyəsinin artması, dünyanın bir tərəfində insanların artıq çəkidən əziyyət çəkməsi və bundan qaynaqlanan xəstəliklərin yaranması, digər tərəfində isə ərzaq çatışmazlığı səbəbindən aclığın və bundan qaynaqlanan ölüm hallarının artması, müharibələr və s. səbəbindən qaçqın və məcburi köçkünlərin sayında müşahidə olunan artım, insan və silah qaçaqmalçılığı kimi bir sıra hər kəsə təsir edən, həll edilməsi vacib olan çox mühüm problemlər də üzə çıxdı. Hökumətlərarası, beynəlxalq təşkilatlar və yerli hökumət təşkilatları bu problemləri həll etmək üçün qlobal ictimai siyasətlər hazırlamalı idilər. Və bu istiqamətdə ilk addım olaraq onlar artan problemlərin həllinin müzakirəsi üçün əməkdaşlığa başladılar. Bu müzakirələrin nəticəsi olaraq hazırlanan və qəbul olunan qərarlar zaman keçdikcə, dəyişən və həlli daha da mürəkkəbləşən problemlərlə paralel olaraq dəyişir və inkişaf edir. Bu problemlərin həlli yolunda qloballaşma, həmçinin, dövlətlərin öz daxili məsələlərində də yeni siyasi qərarlar qəbul etməsini, fərdlərdən və təşkilatlardan bu qərarların hazırlanmasında və həyata keçirilməsində əməkdaşlıq etməsini tələb edir. Birgə siyasətin yaradılması dövründə dövlətlər bir-birindən asılı olur və inkişaf etdirdikləri bu qərarlardan təsirlənərək yeni inkişaf xətti formalaşdırır və bu xətt ilə siyasətlərini davam etdirirlər.

Qloballaşmanın təsir etdiyi sahələr dövlətin daxili və xarici funksiyalarının əsas aparıcı elementi olduğundan, o, dövlət siyasətinin formalaşmasına və fəaliyyətinə birbaşa və dolayı yolla təsir göstərir. Qloballaşma ötən əsrdə meydana çıxan iqtisadi, sosioloji,

mədəni, sosial və hər şeydən əvvəl texnoloji tərəqqinin təbii nəticəsi hesab edilir [4, 290]. O, dövlətin funksiyalarına təsir edərək, onların strukturlarında bir sıra köklü dəyişikliklərə səbəb olmuşdur. Qloballaşma prosesinin nəticəsi olaraq, dövlətin iqtisadi sahəyə müdaxiləsi minimuma endirildi, dövlət müəssisələri özəlləşdirildi və dövlətin iqtisadi sahədə iştirakı azaldı. Belə ki, bu prosesdə malların, xüsusən də, kapitalın sərbəst hərəkəti, iqtisadiyyatın dövlətin nəzarətindən çıxmasına səbəb olmuşdur [2, 58]. Bununla yanaşı, beynəlxalq iqtisadiyyatda da dövlətin rolunun azalması müşahidə edildi ki, bu da transmilli korporasiyaların və beynəlxalq iqtisadi və ticari təşkilatların yaranması və onların hər gün artan və geniş sahəni əhatə edən fəaliyyətləri ilə əlaqədar idi.

Qloballaşmanın dövlət strukturlarına təsiri elə bir məkanda baş verir ki, burada əsas aktorlar qlobal gücə hakim olan dövlətlər və qlobal gücün təsirinə məruz qalan dövlətlərdir. Bu təsirlər arasında, adətən, iqtisadiyyat və maliyyə ilə bağlı olanlar önə çıxır. Bütün digər təsiredici elementlər onlara kömək etmək xüsusiyyətinə malik olurlar [4, 322] və bir növ qüvvətləndirici mexanizm rolunu oynayırlar.

Qloballaşmanın dövlətə təsirlərindən biri də zamanla dövlət suverenliyinin itirilməsidir. Qlobal qarşılıqlı asılılıq artdıqca hər bir dövlət öz xarici suverenliyinə qoyulan məhdudiyyətlərlə razılaşmağa və onları qəbul etməyə məcbur olur. Bu gün, demək olar ki, hər bir dövlət hesab edir ki, ÜTT, Dünya Bankı və BVF-nin qaydalarına riayət etmək vacibdir. Qloballaşmanın təsirinə məruz qalmış dövlət beynəlxalq və hökumətlərarası təşkilatların müəyyən etdiyi qayda və normalara qeyri-iradi olaraq əməl edir və bu da dövlət suverenliyinin zəifləməsinə səbəb olur və tədricən onun itirilməsi təhlükəsini yaradır. Belə ki, qloballaşma dövlətin öz sərhədləri daxilində malların, xidmətlərin və insanların hərəkətinə nəzarətini çətinləşdirib. Qloballaşmanın dinamikası ilk növbədə tələb və təklif qüvvələri tərəfindən formalaşdırılır. Məsələn, Aİ ölkələrində üzv dövlətlər dörd azadlığa (malların sərbəst hərəkəti, kapitalın sərbəst hərəkəti, xidmətlərin yaradılması və təqdim edilməsi azadlığı, insanların sərbəst hərəkəti) riayət etməlidirlər [14, 7].

Qloballaşma təkcə dövlətin milli suverenliyinin davamlı aktuallığı ideyasını şübhə altına salmır, həm də dövlətin xarakterini və rolunu dəyişdirir. Təşviq etdiyi ümumdünya mədəni hərəkat vasitəsilə qloballaşma fərqlilikləri aradan qaldırmağa, digər tərəfdən isə mərkəzləşdirilmiş hökumətə icazə verən bir sistem yaratmağa çalışır. Bu, dolayısı ilə demokratik idarəetmə sisteminin yaradılmasını zəruri edir. Çünki belə bir sistemin qurulması üçün ən ideal idarəetmə forması demokratiyadır. Məhz, demokratiyada fərqliliklərə hörmət, azlıqların hüquqlarının qorunması, eyni zamanda mərkəzləşdirilmiş hakimiyyət həyata keçirilə bilir.

Qloballaşma milli dövlətin siyasətdə öz kursunu təyin etmək imkanlarını zəiflədir. Beynəlxalq iqtisadiyyatın bir-biri ilə əlaqəli təbiətini nəzərə alaraq, hökumətlər üçün ümumi iqtisadi suverenliyi qorumaq isə, ümumiyyətlə, çətindir. Belə ki, qlobal maliyyə və valyuta sistemi hətta ən inkişaf etmiş ölkələrin belə iqtisadi siyasətini müəyyən edə bilir. Buna görə də dövlətlərin resursları birləşdirmək və transmilli təşkilatlarla birgə işləməkdən başqa seçimi qalmır. Bu birbaşa nəzarətin itirilməsi, dolayısı ilə milli suverenliyin itirilməsi deməkdir. Mədəni sahədə isə qloballaşma daha çox qərb normalarının yayılması ilə müşahidə olunur ki, bu da bəzən "qərbləşmə" adlanır. Qeyri-Qərb dünyası nöqteyi-nəzərindən bu, mədəni imperializmin müasir versiyasını təmsil edir [14, 13].

**Nəticə**

Cəmiyyətin strukturuna dərindən təsir edən və qlobal bir cəmiyyətin qurulması yolunda irəliləyən qloballaşma prosesi, iqtisadiyyatdan siyasətə qədər geniş bir sahəyə təsir edir. Bu təsir dolayısı ilə həyat normalarımızın dəyişilməsinə səbəb olur. Həmçinin qloballaşma dövlətlərin sosial, siyasi, iqtisadi sahədə yürütdükləri ənənəvi siyasəti dəyişdirməyə və qlobal dünyanın tələbinə uyğun yeni siyasət formalaşdırmağa sövq edir. Bütün

bunların nəticəsində qloballaşma dövlətin bir çox sahələrdə inkişafına təkan versə də, milli gücünün zəifləməsinə, nüfuzunun və suverenliyinin aşınmasına səbəb olur. Lakin bu dövlətin milli kimliyinin tamamilə aradan qaldırılması demək deyil. Bu gün milli dövlətlər beynəlxalq sistemin ən mühüm aktorları kimi hələ də öz fəaliyyətlərini qoruyub saxlayırlar. Bu fəaliyyətin davamlı olmasını təmin etmək üçün də bir sıra mühüm addımların atılmasına ehtiyac vardır. Qloballaşma prosesində dövlətlər milli və beynəlxalq problemlərlə mübarizə apararaq varlıqlarını davam etdirmək istəyirlərsə, bu prosesə qarşı fəaliyyət göstərmək və mübarizə aparmaq əvəzinə funksional sahələrdə bəzi köhnə vərdişləri tərk edərək dövrün tələbinə uyğun olmaq üçün yeniliyə açıq olmalı və bu istiqamətdə fəaliyyətlərini davam etməlidirlər.

Qloballaşma rifahı, bərabərliyi və ədaləti bərabər və ali keyfiyyətlərlə bütün dünyaya yaymağı hədəfləyən bir anlayışa sahib olduğunu iddia etsə də, qanunun gücü və güclünün qanunu paradoksunda sonuncu hələ də öz üstünlüyünü qoruyub saxlayır və qloballaşmanın dövlət strukturlarına təsirləri, təəssüf ki, bu prinsipə uyğun formalaşır [4, 323 ]. Buradan da gəldiyimiz nəticə ondan ibarətdir ki, qloballaşmanın dövlətə təsirləri faydalı və təhlükəli olmaqla iki müxtəlif müstəvidə, demək olar ki, bərabər olaraq irəliləyir.

## ƏDƏBİYYAT


1. Atasoy F. Küreselleşme ve Milliyetçilik, İstanbul: Ötüken Yayınları, 2005, 443 s.
2. Bakan S. Küreselleşmenin Ulus Devlet Üzerindeki Etkisi, Malatya: Birey ve Toplum Sosyal Bilimler Dergisi, 2012, 2 (1), s. 51-66
3. Çiğdem G. Küresel Ekonomik Kriz ve Etkileri ve Medya, İstanbul: Umuttepe Yayınları, 2014, 356 s.
4. Kartal Ç. Küreselleşme Sürecinin Devlet Yapısı Üzerine Etkileri, Ankara: Ankara Barosu Dergisi, 2016. 2, s. 287-327
5. Şahin M. Uluslararası Ekonomik Kuruluşların Küreselleşme Sürecindeki Rolu, Çanakkale: Rating Academy Yayınları, 2021, 164 s.
6. Haque, M. S. Globalization, New Political Economy, And Governance: A Third World Viewpoint. Administrative Theory & Praxis, 2002. Vol. 24, No. 1, p. 103-124.
7. Larsson T. The Race to the Top: The Real Story of Globalization, Washington: Cato Institute, 2001, 164 p.
8. Lechner F. J. The Globalization Reader, J. Boli, Pondicherry: Wiley-Blackwell, 2020, 648 p.
9. Manning S. Introduction, Journal of World Systems Research, Vol. 5, Is.2, 1999.
10. Ritzer G. The Blackwell Companion to Globalization, Malden: John Wiley & Sons, 2008, 752 p.
11. Karabıçak M. Küreselleşme sürecinde gelişmekte olan ülke ekonomilerinde ortaya çıkan yönelim ve tepkiler, Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2002. 7(1), s. 115-131 (https://dergipark.org.tr/tr/download/article-file/195094)
12. Kıvılcım F. Küreselleşme kavramı ve küreselleşme sürecinin gelişmekte olan ülke Türkiye açısından değerlendirilmesi, Sosyal ve Beşeri Bilimler dergisi, 2013, 5 (1), s. 219-230 (https://dergipark.org.tr/tr/download/article-file/117355)
13. Birdsall N. Globalization and the Developing Countries: The Inequality Risk, 18 march 1999, (https://carnegieendowment.org/1999/03/18/globalization-and-developing-countries-inequality-risk-pub-38)
14. Bloor K. The state and globalization, 16 may 2022, 19 p. (https://www.e-ir.info/2022/05/16/the-state-and-globalisation)
15. Globalization, 11 October 2022 (https://en.wikipedia.org/wiki/Globalization)

***Summary***

***Afsana Qahramanli***

***The Globalization and its İmpact on the State***

Today, we are witnessing that the concept of globalization comes to the fore in almost every field. If we look at the past, we will see that the past world order underwent transformation and the elimination of the difference between far and near led to the formation of cross-border contact aspects. This, in turn, led to the emergence of the concept of globalization. When we think of globalization, the first thing that comes to mind is the spread of something worldwide. In a broader sense, globalization is the ability to bring two distant points of the world closer to each other in many respects, the convergence of countries, societies and individuals regardless of the distance between distant and nearby places, including their economic and social contact with each other. can be defined as In this sense, globalization operates in a very close relationship with the state. To be more precise, it continues its activities in cooperation with the state and its substructures and directly and indirectly influences the state administration, the formation of its internal and foreign policy.

Ever since globalization became widespread, it has interacted with the state at every stage of the state's development process. Today, globalization and its great effects on states continue to exist as an actual phenomenon that has become an object of interest all over the world. At this level, the state acts as the guarantor of a system that still prefers the continued existence of global power. However, states today are concerned about the harmful effects of global and cross-border globalization, and for this reason, they want to take more and more according to tendency steps to protect the existence of the state and ensure the safety of society. This also brings with it a number of inevitable problems, to deal with which there is a need for the existence of a well-established domestic and foreign policy with strong foundations.

***Keywords:*** *state, globalization, politics, management, public policy*

***Резюме***

***Афсана Гахраманлы***

***Глобализация и ее влияние на государство***

Сегодня мы являемся свидетелями того, что концепция глобализации выходит на первый план практически во всех областях. Если мы заглянем в прошлое, то увидим, что прежний миропорядок трансформировался и привел к формированию трансграничных контактных аспектов, устранив различие между дальним и ближним. Это, в свою очередь, привело к появлению понятия глобализации. Когда мы думаем о глобализации, первое, что приходит на ум, – это распространение чего-либо по всему миру. В более широком смысле глобализация – это способность сближать две отдаленные точки мира друг к другу во многих отношениях, сближение стран, обществ и отдельных людей независимо от расстояния между далекими и близкими местами, в том числе их экономическая и социальная связь с друг друга можно определить как В этом смысле глобализация очень тесно связана с государством. Точнее, продолжает свою деятельность во взаимодействии с государством и его подструктурами и прямо и косвенно влияет на государственное управление, формирование его внутренней и внешней политики.

После того, как глобализация получила широкое распространение, она взаимодействовала с государством на всех этапах процесса развития государства. Сегодня глобализация и ее огромное влияние на государства продолжают существовать как актуальное явление, ставшее объектом интереса во всем мире. На этом уровне государство выступает гарантом системы, которая по-прежнему предпочитает дальнейшее существование глобальной власти. Однако государства сегодня обеспокоены пагубными последствиями глобальной и трансграничной глобализации, и по этой причине хотят предпринимать все больше и больше в соответствии с тенденцией шагов для защиты существования государства и обеспечения безопасности общества. Это также влечет за собой ряд неизбежных проблем, для решения которых необходимо наличие устоявшейся внутренней и внешней политики, имеющей прочную основу.

***Ключевые слова:*** *государство, глобализация, политика, управление, государственная политика*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.